# KEÇMİŞİMİZİN MƏDƏNİ İRSİ – AÇIQ SƏMA ALTINDA MUZEYLƏR

**Aynur Ələkbərova**

*AMEA-nın Memarlıq və İncəsənət İnstitutu, Bakı*
*alekberova-aynur2019@mail.ru*

Keçmişimizin mədəni irsinin qorunmasında, bərpasında və təbliğ edilməsində muzeylər böyük rol oynayır. İlk öncə açıq tipli muzey anlayışına nəzər salaq. “Açıq səma altında muzey” dedikdə, ümumi mənada sərgisi açıq havada nümayiş olunan hər hansı bir muzey nəzərdə tutulur. Belə muzeylərə heykəltəraşlıq parkları, miniatür parkları və bir çox texniki muzeylər (açıq səma altında aviasiya, hərbi texnika və nəqliyyat muzeyləri) daxildir. Daha dar mənada açıq səma altında muzeylər memarlıq strukturlarının nümunələrini nümayiş etdirən muzeylərdir. Bir çox muzeylər keçmişin yenidən hərtərəfli qurulmasını həyata keçirirlər. Bu yolla ziyarətçilər müvafiq ölkənin və ya ərazinin tarixi və etnoqrafiyası haqqında ümumi anlayış əldə edərək keçmişin yenidən qurulmuş məkanını ziyarət etmək imkanı əldə edirlər.

Muzeyşünas Yeganə Eyvazova 2020-ci ildə nəşr etdirdiyi “Tarix və mədəniyyət abidələrinin mühafizəsi” adlı kitabında qeyd edir: “Açıq səma altında muzeylərin təşəkkülündə iki mühüm amil başlıca rol oynamışdır: xalq memarlığı abidələrinin qorunması və bu və ya digər tipdən olan mədəniyyət və etnoqrafik kolleksiyaların nümayişi. Bu cür muzeylərin ilkin müəyyən edilməsinin müəllifləri alman tədqiqatçısı A.Tsippelius və Polşa alimi Yeji Çaykovski olmuşdur”.

Açıq səma altında muzeylərin rolunu dəqiqləşdirmək üçün bir neçə mühüm məsələni nəzərə almaq vacibdir:

**Qədim tarixi və mədəni əşyaların qorunması:** Açıq səma altında yerləşən muzeylər, əsasən arxeoloji komplekslər – qədim tarixi və mədəni əşyaların qorunmasına və mühafizəsinə kömək edir. Bu da mədəni irsin qorunmasında əhəmiyyətli rol oynayır.

**Tarixi məkanların müəyyən edilməsi:** Açıq hava muzeyləri tarixi məkanların və arxeoloji abidələrin yerləşdiyi məkanda mövcuddur. Bu muzeylər tarixi məkanların bərpasına və təbii ərazilərin qorunmasına dəstək verir.

**Mədəni irsin nümayiş edilməsi:** Açıq hava muzeyləri həm yerli əhali, həm də turistlər üçün maraqlı və bilikverici bir mühit yaradır. Bu muzeylər tarixi və mədəni irsin ətrafındakı ərazinin mədəni turistik mərkəzə çevrilməsinə, insanların mədəni irsi öyrənməsinə, onunla bağlantı qurmasına və qiymətləndirməsinə kömək edir.

**Yeniliklər və texnologiyaların icra edilməsi:** Açıq səma altında muzeylər gələcək nəslin mədəni irsə yiyələnərək yeni texnologiyaların tətbiqi ilə interaktiv təhsil vasitələri təqdim edir. Bu, mədəni irsin daha geniş bir cəmiyyət tərəfindən qiymətləndirilməsinə və təbii şəkildə qorunmasına kömək edir.

Bununla yanaşı, dünya təcrübəsində mədəni irsin bərpası, qorunması və tanıdılması son dərəcə vacibdir. Açıq səma altında yerləşən muzeylər mədəni irsin təbliği və tanıdılması məsələsində əhəmiyyətli bir rol oynayır. Bu muzeylər insanları keçmişə daha yaxından baxmağa, tarixi və mədəni varisimizi qiymətləndirməyə və onu mədəniyyətimizin bir hissəsi kimi anlamağa dəvət edir.

Bu məqalədə açıq səma altında muzeylərin keçmişimizin mədəni irsinin təbliğinə və tanıdılmasına necə kömək etdiyi araşdırılır.

Azərbaycan zəngin tarixi, qədim mədəniyyəti və mədəni irsi ilə tanınan bir ölkədir. Bu mədəni irs ölkədə bir sıra açıq səma altında muzeylərin inkişafına və yayılmasına səbəb olmuşdur. Azərbaycanın belə fəaliyyətdə olan muzeyləri memarlıq abidələrindən ibarət olan – **Qobustan Dövlət Tarixi-Bədii Qoruğu,** Naxçıvanda **"Əcəmi seyrəngahı"**nda yerləşən açıq səma altında muzey, İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğunda olan **Sıratağlı dini-memarlıq kompleksi, Bazar meydanı və ya Xanəgah kompleksi,** Abşeron yarımadasında Qala kəndində "**Qala**" **Dövlət Tarix-Etnoqrafiya Qoruğu**nda və s. yerləşən mədəni ünsürlər açıq səma altında muzeylər adlı eksponat statusunda çıxış edir.

Azərbaycanın ən məşhur açıq səma altında olan muzeylərindən biri dünyada ən qədim insan məskənlərindən olan **Qobustan Dövlət Tarixi-Bədii Qoruğudur.** Qoruq Azərbaycanın Qobustan rayonunda yerləşir. Qobustanda tapılan maddi mədəniyyət qalıqlarının tarix və mədəniyyət üçün mühüm rol oynadığını nəzərə alaraq, 1966-cı ildə Qobustan Dövlət Tarix və Bədii Qoruğu elan edilmişdir. Qoruq əsasən üç dağın – Böyükdaş, Kiçikdaş və Cingirdağın yerləşdiyi böyük bir ərazini əhatə edir, 2007-ci ildə UNESCO-nun Ümumdünya Maddi-Mədəni İrs Siyahısına daxil edilmişdir. Bu məkan Azərbaycan xalqının keçmişinin tanıdılmasında yerli və xarici turistlərdə unudulmaz təəssüratlar yaradır. Qobustan Paleolit dövründən başlayaraq insanın ilk məskunlaşdığı ərazi ilə bağlı unikal məlumatlar verir. Qaya üzərində qədim insanların həyat və məişətini əks etdirən qayaüstü təsvirlərlə yanaşı, 6000-dən çox petroqlif mövcuddur. Açıq səma altındakı muzeydə minlərlə il əvvəl yaşamış insanların sənətini və mədəniyyətini təqdim edən, insanların məskunlaşdığı mağaralara, yaşayış yerlərinə rast gəlmək olar. 2011-ci ildə Qobustanda müasir standartlara cavab verən muzey açıldı. Bundan başqa 2013-cü ildə Qobustan muzeyi "Avropanın ən yaxşı muzeyi" müsabiqəsinin qalibləri sırasında yer almışdır.

Azərbaycanın digər bölgələrində də açıq səma altında olan muzeylər var. Naxçıvan şəhərinin mərkəzində, **"Əcəmi seyrəngahı"**nda yerləşən bu muzey Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 11 iyul 2002-ci il tarixli Sərəncamına əsasən yaradılmışdır. Açıq səma altında muzeyin eksponatları içərisində daş abidələrimizdə yaşanan tarix, xalqımızın orta əsr qədim və zəngin tarixi-mədəni irsi, memarlıq abidələri ilə yanaşı, həm də müxtəlif növ daşlardan hazırlanmış abidələr xüsusi yer tutur. Ekspozisiyada dörd qrup qiymətli və unikal daş abidələr – eksponatlar yerləşdirilmişdir ki, bu eksponatların əsasını inşaat işlərində istifadə olunan sütunlar, sütun başlıqları və altlıqları, dekorativ üzlüklər, beş ton ağırlığında olan dəyirman daşı, həmçinin dini inanclarımızla bağlı sənduqələr, qoç heykəlləri, məzar daşları, təbiətdən hazır əldə olunan zoomorf fiqurlar və eyni zamanda qayaüstü təsvirlər təşkil edir. Bundan əlavə, muzeyə daşdan yonulmuş digər fiqurlar, daş kitabələr, qəbirüstü xatirə abidələri, sütun altlıqları da daxildir. Əcdadlarımızın yaratdıqları daş abidələr, xüsusilə Gəmiqaya rəsmləri ümumilikdə bəşəriyyətin tarixindən xəbər verir. Yalnız bir ədəd eksponat – Gəmiqayadan gətirilmiş abidə isə şüşəli vitrinə yerləşdirilmişdir. Ekspozisiyadakı 450 maddi-mədəniyyət nümunəsi ulu Naxçıvanın daş yaddaşıdır.

Bakıda İçərişəhərdə yerləşən **Sıratağlı dini-memarlıq kompleksi, Bazar meydanı və ya Xanəgah kompleksi –** ölkə əhəmiyyətli abidədir. 1964-cü ildə aparılan arxeoloji qazıntı işləri zamanı Sıratağlı abidə aşkar olunaraq, Sıratağlı dini-memarlıq kompleksi yaradıldı. Abidə hər tərəfdən səki və sütunlu tağlarla əhatə edilmişdir. Aparılan arxeoloji qazıntılar nəticəsində bu ərazidən 52 qəbir aşkar olunmuşdur. Həyətin

ortasında, qəbirlərin yanında silindrik formalı bir quyu və ondan bir qədər aralı cənub-şərq tərəfdə səkkizguşəli böyük bir sütun aşkar olunmuşdur. Sütun daşla hörülmüş səkkizguşəli, üç pilləli səki üzərində dayanmışdır. Tapılan maddi-mədəniyyət abidələri və qəbirlər buranın müqəddəs ziyarətgah olması barədə arxeoloqların fikirlərinin reallığını bir daha təsdiq edir.

**Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksi** – 2008-ci ildə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə Qala kəndində "Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğunun ərazisində açıq səma altında heyrətamiz muzey yaradıldı. Burada e.ə. III-II minilliklərə aid qayaüstü rəsmlərlə yanaşı, əcdadlarımızın həyat tərzi, onların geyimləri, istifadə etdikləri qab-qacaqlar, pullar və o dövrə aid naxışlarla tanış olmaq mümkündür. Bundan əlavə, interaktiv turdan istifadə etməklə xalça toxumaq, gildən qab düzəltmək, qədim sobada çörək bişirmək və əsl dəmirçi emalatxanasında işləmək mümkündür.

Bütün bunların nəticəsində Azərbaycanın açıq səma altında muzeyləri, ölkənin keçmiş irsi turizm sahəsi, təhsil və mədəniyyətin inkişafına, milli kimliyin qorunması və inkişafı kimi sahələrə böyük təsir göstərmişdir. Bu muzeylər ölkənin mədəni irsinin dünya səviyyəsində tanıdılmasında əhəmiyyətli rol oynayır və Azərbaycanın incəsənət və mədəniyyət zənginliklərini dünya ictimaiyyətinə çatdırır.